1_Layout 1 28.12.2017 13:09 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 25 (516)
29 dekabr
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəyliyi bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Milli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib. Dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olan Ulu Öndərimiz xarici dövlətlərə səfərləri zamanı proqramının zənginliyinə, iş gününün gərginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən həmvətənlərimizlə görüşlərə də mütləq vaxt ayırır, onların problem və qayğıları ilə yaxından maraqlanır, daha sıx təşkilatlanmaları üçün dəyərli tövsiyələr verirdi.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olmuş, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynamışdır.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda "Dünya Azərbaycanlılarının Xartiyası"nın qəbulu birlik və mütəşəkkiliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib.

Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirir, Azərbaycanın, xalqımızın tarixini yazır və nəsillərdən-nəsillərə ötürürlər.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününüz mübarək!

«31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ» VƏ «YENİ İL» BAYRAMLARI MÜNASİBƏTİ İLƏ DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANININ TƏBRİKİ

Cənab generallar, zabitlər, gizirlər, çavuşlar və əsgərlər !

Təməli Milli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi günü müstəqillik əldə olunan zamandan etibarən xalqımız üçün böyük əhəmiyyət kəsb edən şərəfli bir tarixə çevrilmişdir. Milli həmrəylik-mənəvi dəyərlərimizə, tarixi irsimizə bağlılıq, mübarizlik, özünəməxsus ənənələrimizə sadiqlik deməkdir. Vətənini, xalqını sevən hər bir azərbaycanlı öz dövlətini qorumalı, Vətənə böyük məhəbbət və sədaqət nümayiş etdirməlidir.

2017-ci il mühüm tarixi hadisələrlə, müstəqilliyimizin və dövlətçiliyimizin əbədiliyi naminə həyata keçirilən ardıcıl və səmərəli tədbirlərlə əlamətdar olmuşdur. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan daha da inkişaf etmiş, qüdrətlənmişdir.

Ölkə rəhbərinin uğurlu daxili və xarici siyasət kursunun təntənəsi kimi respublikada daxili sabitliyin yaradılması və ictimai təhlükəsizliyin etibarlılığının təmin olunması, demokratik və hüquqi dövlət quruculuğu sahəsində qazanılmış nailiyyətlər dövlətimizin intensiv tərəqqi dövrünə qədəm qoymasına imkan vermişdir. Azərbaycan özünü dünyəvi və demokratik dövlət kimi beynəlxalq aləmdə təsdiqləmişdir.

Böyük iftixar hissi ilə qeyd etmək istəyirəm ki, bu uğurların əldə olunmasında, ölkədə ictimai asayişin qorunmasında və möhkəmlənməsində, cinayətkarlıqla mübarizədə sıralarında qulluq etdiyimiz DİN-in Daxili Qoşunlarının da böyük xidmətləri olmuşdur. Yola saldığımız ildə dövlətin və xalqın keşiyində mətin dayanan Daxili Qoşunların xidməti fəaliyyəti ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

Əziz silahdaşlarım !

Əminəm ki, qarşıdan gələn 2018-ci ildə də Daxili Qoşunların şəxsi heyəti dövlət başçısı tərəfindən fəaliyyətimizə verilmiş qiyməti və göstərilən etimadı şərəflə doğruldacaq, Azərbaycan dövlətinin etibarlı dayaqlarından biri kimi qarşıya qoyulan məsuliyyətli tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gələcəkdir.

Sizi, hörmətli veteranlarımızı, şəhid olmuş hərbi qulluqçularımızın ailə üzvlərini "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il" bayramları münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!

Daxili İşlər Nazirinin müavini -
Daxili Qoşunların Komandanı
general-leytenant Şahin Məmmədov

23 dekabr 2017-ci il

DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI ƏSGƏR VALİDEYNLƏRİ İLƏ GÖRÜŞÜB

Valideynlər övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər

Dekabrın 24-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun Daxili Qoşunların 99713 saylı hərbi hissəsində əsgər valideynləri ilə görüşü keçirilib.

Görüşdən əvvəl Daxili Qoşunların Komandanı şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat-təchizatı ilə tanış olub, ərazidə aparılan quruculuq-abadlıq işləri ilə maraqlanıb.

Hərbi hissə komandiri polkovnik Məzahir Ağayev döyüş hazırlığının vəziyyəti, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji durumu barədə məruzə edib.

General-leytenant Ş.Məmmədov döyüş xidmətinin təşkili və digər zəruri məsələlərlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlarını verdikdən sonra əsgər valideynləri ilə görüşərək, onların müraciətlərini dinləyib.

Görüşün təşkil olunmasında əsas məqsədin valideynlərin müraciət və təkliflərinin dinlənilməsi olduğunu vurğulayan cənab Komandan qeyd edib ki, Daxili Qoşunların bütün hərbi hissələrində əsgərlərin yüksək səviyyədə xidmət aparması üçün hərtərəfli şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, Daxili Qoşunların hərbi qulluqçularının sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərtərəfli şəraitə malik yaşayış kompleksləri, yeni hərbi şəhərciklər, qərargah binaları, əsgər kazarmaları, yeməkxanalar, tibb məntəqələri və s. xidməti otaqlar ən müasir zəruri avadanlıqlarla təchiz edilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı bildirib ki, bütün bunlar bir daha Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçulara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Əsgər valideynləri övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidentinə, həmçinin, Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Görüşdən sonra Daxili Qoşunlar Komandanı əsgər valideynlərini dinləyərək, onların arzu və istəklərinin yerinə yetirilməsi istiqamətində konkret göstərişlər verib, icrası mümkün olan məsələlər isə yerindəcə həllini tapıb.

Mətbuat xidməti

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ 25 İLLİK XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİ ƏKS ETDİRƏN KİTAB İŞIQ ÜZÜ GÖRÜB

Yeni il ərəfəsində "Şərq-Qərb" nəşriyyatında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 25 illik xidməti-döyüş fəaliyyətini özündə əks etdirən, yüksək poliqrafik standartlara uyğun hazırlanaraq tərtib olunan "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları - 25" kitabı işıq üzü görüb.



Kitabda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının ötən 25 ildə formalaşması, inkişaf mərhələləri, Vətən, xalq, dövlət və dövlətçiliyimiz naminə xidməti-döyüş fəaliyyəti, ictimai qaydaların qorunub saxlanmasında, ictimai təhlükəsizliyin təmin edilməsində, silahlı cinayətkarların zərərsizləşdirilməsində, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında, mühüm dövlət obyektlərinin mühafizəsində göstərdiyi fədakar xidmət barədə əhatəli məlumatlar və maraqlı fotolar yer alıb.

Daxili Qoşunların keçdiyi şərəfli yol barədə nəşr olunan bu üçüncü kitabın məzmununda arxiv materiallarına, rəsmi sənədlərə, çoxşaxəli tədqiqat işlərinin nəticələrinə daha geniş istinad edilib.

Daxili Qoşunların şəxsi heyətinin torpaqlarımızın işğaldan azad olunması uğrunda erməni qəsbkarlarına qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıq nümunələrindən də nəşrdə dolğun bəhs olunur.

Təqdim etdiyimiz yeni nəşrdə Daxili Qoşunlarda həyata keçirilən quruculuq-abadlıq işləri, hərbi qulluqçularımızın döyüş təlimləri, idman uğurları, Daxili Qoşunların həyatında əlamətdar hadisələr, beynəlxalq hərbi əməkdaşlıq tədbirləri, hərbi hissələrimizin həyatı, ayrı-ayrı xidmət sahələrinin fəaliyyəti, veteranlarımızın şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsində əməyi və ictimaiyyətlə əlaqələr öz əksini tapıb.

Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun və Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun məsləhətçiləri olduqları kitabın tərtibçi-müəllifi Mətbuat xidmətinin rəisi polkovnik-leytenant Rəşad Sarıyev, redaktoru isə Daxili Qoşunların Veteranlar Şurasının katibi, ehtiyatda olan kapitan Yalçın Abbasovdur.

Daxili Qoşunlar haqqında informasiya mənbəyi olan kitabın ərsəyə gəlməsində köməkliyini əsirgəməyən hərbi qulluqçularımıza və veteranlarımıza minnətdarlığımızı bildiririk.

İnanırıq ki, Daxili Qoşunların 25 illik salnaməsini əhatə edən yeni nəşrimiz oxucularımızın ürəyincə olacaq.

Mətbuat xidməti

2_Layout 1 28.12.2017 13:53 Page 1

DAXİLİ QOŞUNLAR 2017-ci İLDƏ...



Yanvarın 17-də Daxili Qoşunların Baş İdarəsində "2016-cı ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunları"na dair Hərbi Şuranın geniş tərkibdə iclası keçirilib. İclasda Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov, Baş İdarənin şöbə və xidmət rəisləri, hərbi hissələrin komandirləri və komandir müavinləri iştirak ediblər.

***

Fevralın 10-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun 25031 saylı hərbi hissədə xidmətə yeni qəbul olunmuş əsgərlərlə görüşü keçirilib.

***

Fevral ayının 24-də Daxili Qoşunların Baş İdarəsində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru Vaqif Abbasov iştirak edib.

***

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 25-ci ildönümü münasibətilə Daxili Qoşunların Komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri Xiyabanda Milli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.

***

Martın 12-də Daxili Qoşunların yaranmasının 25 illik yubileyi münasibətilə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun iştirakı ilə Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib.

***

Martın 18-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və Daxili İşlər Nazirinin əmri ilə mükafatlandırılmış bir qrup hərbi qulluqçuya mükafatların təqdim edilməsi mərasimi keçirilib.

***

Aprelin 5-də Daxili Qoşunların Ali Hərbi Məktəbində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri ilə görüş keçirilib. Görüşdə 14 ölkənin - Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, Türkiyə, İran, Cənubi Koreya, Çexiya, Qazaxıstan, Rumıniya, Ukrayna, Pakistan, Belarus, Bolqarıstan, Gürcüstan respublikalarının hərbi attaşeləri və digər səlahiyyətli nümayəndələri iştirak ediblər.

***

Aprelin 9-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun Qoşunların Bakı şəhərində yerləşən hərbi hissəsində əsgər valideynləri ilə görüşü keçirilib.

***

Aprelin 26-da Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Türkiyə Respublikasının Jandarm Baş Komandanı ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

***

Mayın 2-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun iştirakı ilə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində keçirilən tədbirdə IV İslam Həmrəyliyi Oyunları zamanı ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsinə cəlb olunmuş hərbi qulluqçuların hazırlığının, geyim təminatının, xüsusi avadanlıq, eləcə də nəqliyyat vasitələri ilə təchizatının vəziyyəti yoxlanılıb.

***

İyunun 3-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov IV İslam Həmrəyliyi Oyunlarında uğurla iştirak edərək yüksək mükafatlar qazanan polis əməkdaşlarını, Daxili Qoşunların hərbi qulluqçularını və DİN İdman Cəmiyyətinin yetirmələrini qəbul edib.

***

İyunun 2-də Daxili Qoşunların Baş İdarəsində IV İslam Həmrəyliyi Oyunları zamanı qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirdiklərinə, yüksək peşəkarlıq və hərbi intizam nümayiş etdirdiklərinə görə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmrinə əsasən mükafatlandırılan Daxili Qoşunların bir sıra hərbi qulluqçularına mükafatların təqdim edilməsi mərasimi keçirilib. Mükafatları Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov təqdim edib.

***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışında iştirak edib.

***

Daxili Qoşunların Qaraheybət Təlim Mərkəzinin ərazisində polis orqanlarının əməkdaşları və Daxili Qoşunların şəxsi heyəti ilə "Yaşayış məntəqəsində, meydanda ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini zamanı kütləvi iğtişaşların, cinayətlərin, eləcə də digər hüquq pozuntularının qarşısının alınması üzrə xüsusi əməliyyatın təşkili və keçirilməsi" mövzusunda birgə xüsusi-taktiki təlim məşqi keçirilib.

***

İyunun 26-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında fəaliyyətini başa vuran hərbi attaşesi polkovnik Səid İmran Əlini və həmin vəzifəyə yeni təyin olunmuş polkovnik Nadem Yaqub Çodrini qəbul edib.

***

İyulun 15-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "2017-ci ilin I yarımilində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş iclası keçirilib.

***

Fevral, may, avqust və noyabr aylarında Daxili Qoşunların hərbi hissələrində xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimi keçirilib.

***

Avqustun 14-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Səbail rayon İcra Hakimiyyəti tərəfindən həyata keçirilən birgə layihə çərçivəsində məktəblilərin Daxili Qoşunların 16073 saylı hərbi hissəsində yaradılmış hərbi-vətənpərvərlik təmayüllü "Şahinlər" yay istirahət düşərgəsinə yolasalma mərasimi keçirilib.

***

Sentyabr ayında Daxili Qoşunların Ali Hərbi Məktəbinə yeni qəbul olunan kursantların təntənəli andiçmə mərasimi keçirilib.

***

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"nın tələblərinə uyğun olaraq, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının əmrinə əsasən, Müdafiə Nazirliyinin "Goran" Təlim Mərkəzində noyabrın 7-dən 11-dək 16077 və 16073 saylı hərbi hissələrin artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilib.

3_Layout 1 28.12.2017 13:49 Page 1

AZƏRBAYCANLI HƏRBÇİLƏRDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ ABŞ-ın ALİ HƏRBİ MƏKTƏBLƏRİ İLƏ TANIŞ OLUB

Daxili Qoşunları səfərdə Qərargahın Əməliyyat və Döyüş hazırlığı İdarəsinin rəisi polkovnik İnqilab Muradov təmsil edib

29 noyabr - 10 dekabr tarixlərində Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin, Dövlət Sərhəd Xidmətinin və Gömrük Komitəsinin nümayəndələrindən ibarət heyət Amerika Birləşmiş Ştatlarında səfərdə olub. Məqsəd bu ölkənin ali hərbi məktəblərilə tanışlıqdan ibarət idi.

Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və Döyüş hazırlığı İdarəsinin rəisi polkovnik İnqilab Muradovun da daxil olduğu nümayəndə heyətini ABŞ-ın Azərbaycan Respublikasındakı Səfirliyinin Hərbi əməkdaşlıq şöbəsinin rəisi 2-ci dərəcəli kapitan Cey Nihal, Hərbi əməkdaşlıq şöbəsi rəisinin müavini mayor Ross Şaunbaun və həmin şöbənin əməkdaşı Ələkbər Bağırov müşayiət ediblər.

Səfər proqramı çərçivəsində nümayəndə heyətinin Meriland ştatının paytaxtı Annapolis şəhərində yerləşən Ali Hərbi Dənizçilik Məktəbinin rəisi vitse-admiral Valter Karterlə görüşü olub. Görüşdə məktəb haqqında geniş brifinq təqdim olunub. Məktəbin tədris bazası və kursantlar üçün yaradılmış şərait nümayiş etdirilib.

Həmçinin nümayəndə heyəti üçün Ali Hərbi Dənizçilik Məktəbinin ərazisində tarixi Gettisburq döyüş meydanında ekskursiya təşkil olunub.

Nümayəndə heyəti Nyu-York ştatının 5 bölgəsindən biri olan Bruklin şəhərində Hərbi Dəniz Qüvvələrinin tarixi tərsanə muzeyində də olub.

Dekabrın 5-də azərbaycanlı hərbi qulluqçuları Nyu-Yorkda, Vest Poyntda yerləşən ABŞ-ın Ali Hərbi Məktəbinin rəisi general-polkovnik Robert Kaslen qəbul edib. Qəbul zamanı məktəbin tarixi, kursant qəbulu qaydaları barəsində geniş brifinq verilib. Sonra məktəbin tədris bazası, fiziki hazırlıq şəhərciyi və kursantlar üçün yaradılmış sosial-məişət şəraiti ilə tanışlıq olub.

Nümayəndə heyəti dekabrın 6-da Konnektikut ştatının Groton şəhərində ABŞ-ın Sahil Mühafizə Akademiyasını ziyarət edib. Akademiyanın rəisi kontr-admiral Cim Rendon qonaqlarla görüşdə məktəb barəsində ümumi məlumat verib. Həmin gün heyət Liderlik İnkişafı Mərkəzinin, Komanda və Əməliyyatlar Məktəbinin, xüsusi trenajorların və zabit hazırlığı məktəbinin imkanları ilə tanış olub.

Səfər proqramına uyğun olaraq, nümayəndə heyəti dekabrın 7-8-də Kolorado ştatının Denver şəhərində ABŞ-ın Ali Hərbi Təyyarəçilik Məktəbində də olub, burada yaradılmış şəraitlə maraqlanıb. Ali Hərbi Təyyarəçilik Məktəbinin rəisi ilə rəsmi görüşdən sonra nümayəndə heyətinə təhsil müəssisəsi haqqında brifinq verilib. Qonaqlar məktəbin liderlik və xarakterin tərbiyəsi mərkəzini, linqafon kabinetini, aeronavtika trenajor mərkəzini, kursant yataqxanasını, habelə dini ibadət yerini ziyarət edərək, Hərbi Hava Qüvvələri muzeyində nümayiş etdirilən eksponatlarla tanış olublar.

Dekabrın 10-da nümayəndə heyətinin ABŞ-a səfəri başa çatıb.

Mətbuat xidməti

TERAPİYA ŞÖBƏSİNİN SAVADLI MÜTƏXƏSSİSLƏRİ HƏRBİ QULLUQÇULARIN SAĞLAMLIĞININ KEŞİYİNDƏDİR

Daxili orqanların diaqnostika, müalicə və profilaktikasını öyrənən terapiya yunan sözü olub, qulluq etmə, müalicə etmə anlamını verir. Terapiya qeyri-cərrahi təbabətin geniş sahəsini əhatə edir. Bura ürək-damar (revmatizm, ÜİX, hipertoniya xəstəliyi, aritmiyalar, ürək çatışmazlığı), tənəffüs orqanları xəstəlikləri (qrip, traxeit, bronxit, pnevmoniya, bronxial astma, ağciyərlərin xroniki obstruktiv xəstəlikləri), mədə-bağırsaq sistemi xəstəlikləri (qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, kolit), revmatik xəstəliklər (birləşdirici toxumanın sistem xəstəlikləri, artroz, artrit), ifrazat sistemi xəstəlikləri (qlomeru - lonefrit, böyrəklərin digər autoimmun pato - logiyalar nəticəsində zədələnmələri), endokrinoloji xəstəliklər (şəkərli diabet, tireoid xəstəlikləri) və s. aiddir.

Daxili Qoşunların 12576 saylı hərbi hissəsinin-hərbi qospitalının Terapiya şöbəsinin savadlı tibb personalı da hərbi qulluqçularda aşkarlanan bu xəstəliklərin müalicəsi ilə məşğul olur. Bu barədə şöbə rəisi vəzifələrini müvəqqəti icra edən həkim-endokrinoloq baş leytenant Pərvanə Mirzəyeva məlumat verdi.

Baş leytenant P.Mirzəyeva 1983-cü il noyabr ayının 5-də Bakı şəhərində doğulub. 2000-2007-ci illər ərzində Azərbaycan Tibb Universitetinin "Müalicə işi" fakültəsində ali təhsil alıb. 2011-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. Hərbi hissə komandanlığı tərəfindən nizam-intizamlı hərbi qulluqçu, savadlı həkim-mütəxəssis kimi xarakterizə olunur, müxtəlif mükafatlara layiq görülüb.

Söhbət zamanı o bildirdi ki, şöbədə bütün nozologiyalar üzrə xəstələr müalicə ala bilir: "İlk olaraq, onlar qospitalın qəbul şöbəsinə qəbul olunurlar. Həkim-terapevtlər-kardioloq, endokrinoloq, pediatr və digərləri qəbul şöbəsində xəstələri müayinə edir, müvafiq diaqnoz qoyulur, xəstəlik tarixçəsi açılır və xəstəliyin növündən, inkişafından, xəstənin vəziyyətindən asılı olaraq ambulator və ya stasionar müalicəyə qəbul olunurlar. Ambulator müalicəyə qəbul olunan xəstələr evə buraxıldıqdan sonra da tam olaraq sağalana kimi həkimlərin nəzarəti altında olurlar. Xüsu - qulluqçuları fəallıq nümayiş etdirir, müxtəlif aktual mövzularla çıxış edirlər. Bun - dan əlavə, ayda bir dəfə olmaqla, konfrans keçirilir ki,burada müxtəlif tibb müəs - sisələrindən dəvət olunmuş qonaqlar da çıxış edirlər.

Gündəlik olaraq, bir neçə dəfə şöbədəki xəstələrin vəziyyətinə baxış keçirilir, müvafiq müalicəvi təyinatlar verilməsinə nəzarət olunur. Xəstələrin vəziyyəti, xəstəliyin gedişatı, müalicəsini başa çatdırdıqdan sonra şöbədən çıxarılan və şöbəyə yeni qəbul olunan xəstələr barədə şöbə rəisini məruzə olunur. Palatalarda rejim və

silə, şəkərli diabet xəstəliyindən əziyyət çəkən xəstələrin mütəmadi olaraq müalicələri davam etdirilir".

Stasionar müalicənin müddəti isə bir həftədən bir aya kimi davam edir. Ağırlaşma halları olarsa, bu müddət uzadıla bilər.

Şöbə öz fəaliyyətini günün nizam qay - dalarına uyğun həyata keçirir. Hər gün hərbi hissə komandirinin rəhbərliyi ilə keçirilən ümumi iclasdan əlavə, şöbədə həkimlərin və tibb bacılarının iştirakı ilə mü - şavirə keçirilir, burada hər bir hərbi qul - luqçuya müvafiq tapşırıqlar verilir. Həftənin cümə axşamı günləri keçirilən həkim - lərin seminarında terapiya şöbəsinin hərbi sanitar-gigiyena qaydalarına əməl olunması şöbə rəisi tərəfindən nəzarətdə saxlanılır.

Şöbənin həkimləri - pediatr kapitan Lətifə İbrahimova, terapevt baş leytenant Venera Abdullayeva, kardioloq baş leytenant Günel Nəsirli, endokrinoloq leytenant Gülnarə Hacıyeva, işçi həkim-terapevtlər Şahin Hüseynov və Lütfiyə Sultanlı, həmçinin baş tibb bacısı gizir Aynur Babayeva, tibb bacıları kiçik gizir Həvva Əliyeva, baş çavuşlar Əzəmət İsgəndərova, Ayşən Səfərli, Nəzakət Quliyeva, Əminə Əliyeva və çavuş Aysel Əsədova vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Baş tibb bacısı gizir A.Babayeva tibb bacılarını təlimatlandırır, onların işinə nəzarət edir.

Tibb bacıları xəstələrlə müvafiq prose - durları, dərmanların vaxtında qəbulunu tə - min edirlər. Həftənin bazar ertəsi günləri keçirilən seminarda iştirak etmələri isə onların ixtisas hazırlıqlarını təkmilləşdir - mələrinə imkan verir.

baş leytenant X.Hacızadə

GENERALLARIMIZ

GENERAL - MAYOR ƏBDÜLHƏMİD BƏY QAYTABAŞI

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 1918-ci il 15 noyabr tarixli əmri ilə Ümumi qərargahın tərkibindəki növbətçi general vəzifəsinə təyin olunmuşdu. Onun tabeliyində müfəttişlər bölməsi, təmir və bərpa bölməsi, ümumi bölmə, qeyri-nizami bölmə və nəşriyyat var idi.

Ulu babası kapitan Əbdülməcid bəy XVIII əsrin sonlarında Türkiyənin İstanbul şəhərindən Tiflisə köçmüşdür. Alay başçısı olduğuna görə ona Xaytabaşı titulu verilir. Ruslar onun Xaytabaşı soyadını sənədlərində səhvən, təhriflə Qaytabaşı kimi yazmışlar. Sonralar rəsmiləşən bu nadir soyad 1920-ci ilin iyun ayında general Əbdülhəmid bəy güllələnənə qədər işlənmişdir.

Əbdülhəmid bəyin atası Şərif bəy Qaytabaşı 1835-ci il oktyabrın 26-da Tiflis Quberniyasında anadan olmuşdur. 1890-cı ildə tərtib olunmuş sənədlərdə onun süvarı qoşunlarında Şərq dillərinin tərcüməçisi olduğu, podpolkovnik kimi şərəfli yolu, orden və medalları göstərilmişdir.

Əbdülhəmid bəy Qaytabaşı 1918-1920-ci illərdə Milli Ordumuzun sıralarında şərəflə xidmət edən ən yaxşı generallardan biri idi. Əbdülhəmid bəy Birinci Dünya Müharibəsi illərində iki yüz beşinci Şamaxı piyada alayında ştabs-kapitan rütbəsində döyüşlərdə iştirak edib. 1916-cı ildə dördüncü dərəcəli "Müqəddəs Vladimir" ordeni ilə təltif olunmuşdur.

Yunker Əbdülhəmid bəy Peterburq yaxınlığındakı Pavlovsk hərbi məktəbini bitirib. 1906-cı il fevralın 23-də onun altıncı Qrenadyor-Minqrel alayında xidmətə başlayıb.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1919-cu il 25 iyun tarixli qərarı ilə Ə.Qaytabaşı general-mayor rütbəsinə layiq görülmüşdü.

1919-cu il dekabrın 10-da general-mayor Həbib bəy Səlimov Bakı istehkamçılar hissəsinin rəisi təyin edilərkən, Ümumi qərargah rəisi vəzifəsinin müvəqqəti icrası Ə.Qaytabaşıya həvalə olunmuşdu. Bu vəzifəni Azərbaycan ordusunun qərargahı yaradılana qədər icra etmişdir. 1920-ci il martın 1-dən fəaliyyətə başlayan Azərbaycan ordusu qərargahında Ə.Qaytabaşı növbətçi generalın idarəsinə rəhbərlik edirdi. Hərbi nazirlikdə struktur dəyişikliklərindən sonra ümumi bölmə, təftiş bölməsi, pensiya bölməsi və nəşriyyat işləri bu idarəyə verilmişdi. Aprel işğalından (1920) sonra Ə.Qay - tabaşı qısa müddət Azərbaycan ordu - su qərargahının rəisi vəzifəsini icra etmişdi. Lakin Azərbaycanda sovet-bolşevik rejiminə qarşı müqavimət hərəkatı genişləndikdə, bir çox Cüm - huriyyət generalları kimi, Ə.Qaytabaşı da bolşeviklər tərəfindən repressiyaya məruz qaldı və güllələndi.

HƏRBİ XİDMƏT BORCUNU VİCDANLA YERİNƏ YETİRMƏK ƏZMİ...

Daxili Qoşunların bütün hərbi hissələrində olduğu kimi, 25031 saylı hərbi hissənin şəxsi heyəti hərbi xidmət borcunu vicdanla yerinə yetirir, qarşıya qoyulan tapşırıqların icrasına əzmlə yanaşır. Bu hərbi hissədə tez-tez oluram, çünki Daxili Qoşunların veteran təşkilatı burada yerləşir. Veteranlar Şurasının bir sıra tədbirləri bu hərbi hissədə təşkil edilir. Ona görə də hərbi hissənin şəxsi heyətinin necə xidmət apardığını müşahidə etmək imkanım olur. Bu müşahidələrim əsasında, habelə hərbi hissə komandanlığının fikrini nəzərə alaraq, nümunəvi xidmət edən əsgərlər barədə bir yazı hazırlamağı qərara aldım.

Hərbi hissənin komendant bölüyünə öz təyinatına görə mühüm vəzifələr həvalə olunub. Gündəlik olaraq, döyüş xidmətinə cəlb edilən şəxsi heyət döyüş bayrağı, hərbi şəhərcik və 64412 saylı hərbi hissədəki mərkəzləşdirilmiş anbarların etibarlı mühafizəsinə cavabdehdir. Bölük müasir standartlara cavab verən kazarmada yerləşir və yaradılan belə şərait şəxsi heyəti nümunəvi xidmətə həvəsləndirən amillərdən biridir.

Baş əsgər Əhməd Qeybullayev komendant bölüyündə manqa komandiridir. 1998-ci ildə Xaçmaz rayonunda anadan olub. Hərbi xidmətə qədər idmanın sərbəst güləş növü ilə məşğul olaraq, zona turnirlərində qalib yerləri tutub. 2017-ci ilin yanvar ayından Daxili Qoşunların sıralarında hərbi xidmətdədir. Bölükdə layiqli xidməti nəzərə alınaraq, ona baş əsgər hərbi rütbəsi verilib. Qarovul xidmətində dəyişdirici kimi üzərinə düşən vəzifələri dəqiqliklə yerinə yetirir. Manqa komandiri olaraq da ona göstərilən etimadı doğruldur. Kiçik çavuş hərbi rütbəsinə təqdim olunub. Bu il keçirilən inspeksiya yoxlamasında "əla" qiymətləndirilib.

O bildirdi ki, komendant bölü - yündə hərbi xidmət həm şərəfli, həm də məsuliyyətlidir. Əhməd bölükdə hər bir əsgərin həvəslə xidmət etdiyini söylədi.

Bölükdə atıcı əsgər Abduley Məmmədəliyev 1995-ci ildə Oğuz rayonunda anadan olub. Mingəçevir Dövlət Universitetinin məzunudur. Ekologiya mühəndisliyi ix-



tisasına yiyələnib. 2017-ci ilin iyul ayından Daxili Qoşunların sıralarında hərbi xidmətdədir. Nizam-intizamı və təlimdə çalışqanlığı ilə fərqlənir. Qarovul xidmətində saatdar kimi ayıq-sayıq xidmət aparır. Qarovulun fəallarından biri kimi də öz vəzifələrini bacarıqla yerinə yetirir.

Hərbi hissənin təminat bölüyündə yanğınsöndürən əsgər Ağaqulu Miriyev 1998-ci ildə Salyan rayonunda anadan olub. 2016-cı ilin oktyabr ayından Daxili Qoşunların sıralarında hərbi xidmətdədir. Yanğınsöndürən kimi vəzifələrini mükəmməl bilir və praktiki fəaliyyətə daim hazırdır. Müvafiq yanğınsöndürmə vasitə - lərindən istifadə edilməklə keçi - rilən məşqlərdə çevikliyi və mə - harəti ilə fərqlənir. Təlim göstəri - ciləri müsbətdir. İnspeksiya yoxlamasında "yaxşı" qiymətləndirilib. O, hərbi xidmətdən sonra yanğınsöndürən peşəsi üzrə işləməyi düşünür.

Təminat bölüyündə atıcı əsgər Vüqar Ağabəyov 1999-cu ildə Qəbələ rayonunda anadan olub. Qəbələ Turizm və Otelçilik üzrə Peşə Təhsili Mərkəzində təhsil alıb. İxtisasca aşpazdır. Hərbi xidmətə qədər atıcılıq idman növü ilə məşğul olub. Mahir atıcıdır. Özünün dediyinə görə, 2016-cı ilin fevral ayında atıcılıq üzrə respub - lika birinciliyində pnevmotik tir tüfəngindən sərrast atəş açaraq qalibiyyət zirvəsinə ucalıb. 2017-ci ilin yanvar ayında Daxili Qoşunla - rın sıralarına hərbi xidmətə çağırılıb. Bölükdə əsgər olaraq üzərinə düşən tapşırıqları məsuliyyətlə yerinə yetirir. Müvafiq xidmətaparma yerlərində ona həvalə olunan vəzifələrin icrasında əzmkarlıq göstərir. İnspeksiya yoxlamasında "əla" qiymətləndirilib. Hərbi xidmətdən sonra öz ixtisası üzrə işləmək istəyir və atıcılıq id - man növündə respublikamızın adını ucaltmağı arzulayır.

Bölükdə daha bir atıcı əsgər Rauf İbrahimzadə də komandirlər tərəfindən müsbət xarakterizə olunur. O, 1998-ci ildə Gəncə şəhərində anadan olub. Hərbi xidmətədək Gəncə Pedaqoji Universitetinin idman fakültəsində qiyabi əsasda təhsil alır. 2016-cı ilin oktyabr ayında Daxili Qoşunların sıralarına hərbi xidmətə çağırılıb. Bölükdə Daxili Qoşunların mər - kəzləşdirilmiş anbarlarında yükləmə-boşaltma işlərini yerinə yeti - rən taqımın tərkibindədir. Qarşıya qoyulan tapşırıqları müvafiq təlimatların tələblərinə uyğun yerinə yetirir. Təlim-tərbiyəsində müsbət cəhətdən fərqlənir. İnspeksiya yoxlamasında "yaxşı" qiymətləndirilib. O qeyd etdi ki, hərbi xidmət hər bir gəncə həyat üçün vacib keyfiyyətlər aşılayır. Əsgərlərə göstərilən hərtərəfli diqqət və qayğı isə uğurlu xidmətə ruhlandıran amildir.

Yalçın Abbasov

4_Layout 1 28.12.2017 13:05 Page 1

TƏBRİK MƏKTUBLARI DAVAM EDİR...

Salam hörmətli redaksiya!

Dünyada hər bir dəyərdən üstün bir dəyər var. Bu, qədim mütərəqqi adət-ənənələrə söykənən milli dəyərdir. Xalqımızın milli maddi-mənəvi dəyərləri sırasında onun tarixi boyu həyat yolunu, yaşam tərzini, dövlətçilik və qəhrəmanlıq ənənələrini, estetik dünyagörüşünü özündə əks etdirən mətbuatın xüsusi rolu və yeri var.

Müstəqilliyimizin əldə edildiyi bir vaxtda, Dağlıq Qarabağ uğrunda mənfur Ermənistanla aparılan müharibə zamanı əsgərlərimizin döyüş salnaməsini, qəhrəmanlıq tarixini, ən başlıcası dövlətçilik ənənələrimizi geniş oxucu auditoriyasına çatdırmaq üçün əsgər tək döyüşkən bir mətbu orqanın - "Əsgər" qəzetinin yaradılması tarixi bir zərurət, günün ən aktual, ən ümdə məsələləri kimi meydana çıxmışdır.

16 dekabr 1992-ci il tarixdə hörmətli ziyalılarımızın xeyir duası və tövsiyəsi ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının mətbu orqanı - "Əsgər" qəzeti işıq üzü gömüşdür. Bununla da, ikinci dəfə dövlət müstəqilliyimizi əldə etdikdən sonra hərbi jurnalistikanın yenidən əsası qoyulmuşdur.

Bu gün "Əsgər" qəzetinin müstəqil ordu quruculuğu sahəsində xalqımıza bəxş etdiyi uğurlar və töhfələrlə qürur duymaq onun bütün əməkdaşları ilə yanaşı, Daxili Qoşunların hər bir hərbi qulluqçusunun mənəvi haqqıdır.

Şərəfli yol keçən bu mətbu orqanda müxbir və məsul katib vəzifələrində çalışmağıma görə xüsusi qürur hissi duyuram.

Yaranışından dövlətimizin və xalqımızın xidmətində döyüşkən müsəlləh əsgər kimi dayanan "Əsgər" qəzetinin 25 illik yubileyi münasibətilə qəzetin bütün yaradıcı kollektivini səmimi qəlbdən təbrik edir, yeni-yeni yaradıcılıq uğurları və ən başlıcası, düşmən üzərində böyük qələbə müjdəsi arzulayıram.

Mərdan Hüseynli,
"Azərbaycan yolları" qəzetinin redaktoru,
ehtiyatda olan zabit

DƏSTƏ 2017-ci İLDƏ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARIN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİB

Hər il Daxili Qoşunların hissə və bölmələri ilin yekun yoxlamalarına cəlb olunur. Yoxlamalar zamanı hərbi hissələr xidməti-döyüş fəaliyyətlərinə görə qiymətləndirilirlər.

Bu il yüksək döyüş hazırlığı, o cümlədən nizam-intizam nümayiş etdirərək keçirilən ilin yekun yoxlaması zamanı "əla" və "yaxşı" qiymətlərlə qiymətləndirilmiş bölmələrdən biri də 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsidir. Dəstə 2017-ci ildə qarşıya qoyulmuş bütün tapşırıqların öhdəsindən layiqincə gəlib.

Bütün bunlar dəstənin şəxsi heyətinin gündəlik fəaliyyətinin düzgün təşkilinin, fiziki, atəş hazırlığının yüksək olmasının nəticəsidir.

Xüsusi təyinatlı dəstənin komandiri vəzifələrini icra edən kapitan Rəşad Məmmədov cari ildə əldə olunan uğurlardan danışarkən Xızı rayonu ərazisində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin sursat anbarında baş vermiş partlayışla əlaqədar tapşırığın icrasını önə çəkdi. Baş vermiş hadisə ilə əlaqədar dəstədən xüsusi-həmlə qrupunun və istehkam yarımqrupunun şəxsi heyəti gündəlik olaraq xidmətə cəlb olunublar. Ərazidə aparılmış əməliyyat-axtarış tədbirləri zamanı dəstə tapşırıqları uğurla həyata keçirərək fəaliyyətini müvəffəqiyyətlə başa vurub. Vəzifələrin uğurla icra olunmasında xüsusi-həmlə qrupunun komandiri baş leytenant Vüsal Həsənovun və istehkamçı yarımqrupunun komandiri baş gizir Sənan İbayevin əməyi təqdirəlayiqdir.

Cari ildə dəstə bir neçə idman nailiyyətlərinə də imza atıb. Leytenant Natiq Allayarov bu il idmanın cü-do və əlbəyaxa döyüş növləri üzrə, ümumilikdə, üç yarışa qatılıb. Hər üç turnirdə bütün rəqiblərini üstələyərək çempion adına layiq görülüb. Yeri gəlmişkən, qeyd edək ki, leytenant N.Allayarov Ukraynada güc strukturları arasında keçirilmiş əlbəyaxa döyüş növündə 73 kq çəki dərəcəsində dünya kubokunu qazanıb.

Bütün bu sadalanan və il ərzində əldə olunan nailiyyətlər təbii ki, gündəlik xidməti fəaliyyətə məsuliyyətlə yanaşmağın, eyni zamanda, keçirilən praktiki təlim və məşğələlərdə qazanılmış biliklərin, peşə vərdişlərinin nəticəsidir.

Şəxsi heyətin özünəinam hissi deməyə əsas verir ki, dəstə bu il olduğu kimi, gələn il də yüksək döyüş qabiliyyətini qoruyub saxlamaq, əldə etdiyi uğuru təkrarlamaq əzmindədir.

baş leytenant T.Əlizadə

MÜHƏNDİS-İSTEHKAMÇILARIMIZ YÜKSƏK PEŞƏKARLIQ NÜMAYİŞ ETDİRİB

Əməliyyat-axtarış tədbirləri zamanı xüsusi fəallıqları ilə seçilən bir qrup hərbi qulluqçumuz Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmri ilə mükafatlandırılıblar

Xızı rayonu ərazisində yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin sursat anbarında baş vermiş yanğın və partlayış nəticəsində ətrafa yayılmış sursat və mərmi qalıqlarının təmizlənməsi məqsədilə həyata keçirilən əməliyyat-axtarış tədbirləri dekabrın 14-də başa çatıb. Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Mühəndis xidmətinin rəisi polkovnik Rizvan Abbasovun rəhbərliyi ilə 99713, 67987 və 16075 saylı hərbi hissələrin şəxsi heyəti də avqustun 28-dən etibarən keçirilən əməliyyat-axtarış tədbirlərində iştirak edib.

90 gün müddətində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunmuş hərbi qulluqçularımız tərəfindən 7346 hektar ərazidə 21803 ədəd partlamamış hərbi sursat, 12608 ədəd partlamış-yanmış mərmi qalıqları və 77701 kq yandırma atımı (barıt) aşkar edilərək, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməkdaşlarına təhvil verilib.

Xidmətin aparılması zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi əməl edilib, heç bir nöqsana yol verilməyib və yüksək peşəkarlıq nümayiş etdirilib. Xidmət zamanı xüsusi fəallıqları ilə seçilən bir qrup mühəndis-istehkamçılarımız Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrilə mükafatlandırılıblar.

Mətbuat xidməti

VƏZİFƏ BORCLARININ İCRASINA MƏSULİYYƏTLƏ YANAŞAN TƏCRÜBƏLİ ZABİT

Daxili Qoşunların hərbi hissələrinin geyim, təsərrüfat əmlakları ilə təchizatı, əşya əmlaklarının düzgün saxlanılması, qorunması, hamam-camaşırxana xidmətləri şəxsi heyətin sosial-məişət təminatında ümdə məsələlərdəndir. 17072 saylı hərbi hissənin əşya xidməti də maddi-texniki təminat üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir, tapşırıqları vaxtında və düzgün icra edir.

Əşya xidmətinin rəisi mayor Kamil Məmmədovdur. O, 2004-cü ildən Daxili Qoşunların sıralarında xidmət edir. Nizam-intizamlı, məsuliyyətli, savadlı, peşəkar və öz işini dərindən bilən təcrübəli zabitdir. Daima hərbi hissə komandanlığının qarşıya qoyduğu tapşırıq və tələblərə məsuliyyətlə yanaşaraq, öz işini rəhbər sənədlərin tələbləri əsasında qurur. Əşya anbarının işinə rəhbərlik edir, ləvazimatların saz olmasını və düzgün istismarını nəzarətdə saxlayır. Əmlakların bölmələrə verildiyi vaxt möhürlənməsini, texnikanın, əşya və təsərrüfat əmlakının düzgün istifadə olunmasını, habelə təmirini təşkil edir.

Onun əsas diqqət yetirdiyi məqamlardan biri də hərbi qulluqçuların geyim əmlakları ilə təminatı zamanı hərbi geyimin fərdi qaydada uyğunlaşdırılmasıdır. Bu işə həssaslıqla yanaşan xidmət rəisi hissə komandanlığı tərəfindən qarşıya qoyulmuş hər bir tapşırığı uğurla icra edir. Xidmət, eyni zamanda, iki ayda bir dəfədən az olmayaraq, hərbi hissənin uçot göstəricilərinə görə, bölmələrdə və hissənin anbarında olan əşya və təsərrüfat əmlakının miqdarını, vəziyyətini, kateqoriyasını, komplektliyini və onların qorunub saxlanma şəraitini yoxlayır. Sözsüz ki, görülən işlər zamanı yanğına qarşı təhlükəsizlik tədbirləri, daxili qaydalara ciddi riayət olunması da nəzarətdə saxlanılır.

Bir sözlə, hərbi hissənin xidməti-döyüş fəaliyyətinin qüsursuz yerinə yetirilməsində Əşya xidmətinin fəaliyyəti əhəmiyyətli rola malikdir.

baş leytenant T.Əlizadə

NƏQLİYYAT VASİTƏLƏRİNİN TEXNİKİ HAZIRLIĞI "ƏLA" QİYMƏTLƏNDİRİLİB

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təlimi - nin planlaşdırılması və təşkilinə dair təqvim planı"na əsasən, "Daxili Qoşunlarda avtomobil xidmətinin təşkilinə dair Təlimat"ın tələblərinə uyğun olaraq, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının əmri ilə oktyabrın 2-dən noyabrın 16-dək Ali Hərbi Məktəbdə və hərbi hissələrdə nəqliyyat vasitələrinə illik texniki baxış keçirilib.

Baxış zamanı avtomobil və zirehli texnikanın vəziyyəti, onla - rın düzgün istismarı, parklarda daxili xidmətin təşkili, yol-nəqliyyat hadisələrinin qarşısını almaq məqsədi ilə keçirilən tədbirlər, bu sahəyə cavabdeh vəzifəli şəxslərin və mütəxəssislərin ixtisas ha - zırlığı, müvafiq əmlakların, yanacaq-sürtkü materiallarının hesa - batı, qorunub-saxlanması, istifadə olunması yoxlanılıb və qiymətləndirilib.

Texniki baxışa Ali Hərbi Məktəbin və hərbi hissələrin qeydiyyatında olan bütün nəqliyyat vasitələri təqdim olunub. Qoşunlar üzrə nəqliyyat vasitələrinin texniki hazırlığı "əla" qiymətləndirilib.

Nəqliyyat vasitələrinə illik texniki baxışın nəticələrindən müəyyən edilib ki, nəqliyyat vasitələri - nə texniki xidmət və təmir işlərinin aparılması, onların illik texniki baxışa hazırlığı Ali Hərbi Məktəb - də, 99713, 67987, 17072, 12318, 25033, 16077, 17071, 17074, 16075 və 16076 saylı hərbi hissələrdə ümumən yüksək səviyyədə təşkil edilib.

Bu işdə yüksək peşəkarlıq göstərən, xidməti vəzifə borclarının icrasına layiqincə yanaşan hərbi qulluqçular Ali Hərbi Məktəbin rəisi və hərbi hissə komandirlərinin səlahiyyətləri ilə mükafatlandırılıblar.

baş leytenant X.Hacızadə

VETERANLAR ŞURASININ YENİ SƏDRİ SEÇİLİB

Bu günlərdə 25031 saylı hərbi hissədə Daxili Qoşunların Veteranlar Şurasının növbəti ümumi yığıncağı keçirilib. Ümumi yığıncaqda Veteranlar Şurasının ötən iki ildə gördüyü işlər barədə hesabatı dinlənilib. Müzakirələr zamanı Veteranlar Şurasının hesabat dövründə ictimai fəaliyyəti, ümumilikdə, müsbət qiymətləndirilib.

Bununla yanaşı, ümumi yığıncaqda Veteranlar Şurasının növbəti iki ildə fəaliyyət göstərmək üçün yeni tərkibi də seçilib. Ümumi yığıncaq iştirakçıları veteranlardan Çingiz Daşdəmirov, Murad Mürsəlov, Telman Aslanov, Səfxan Bayramov, Vaqif Nəsibov, Elxan Mirzəyev və Yalçın Abbasova yekdilliklə etimad göstəriblər.

Veteranlar Şurasının yeni tərkibdə keçirilən iclasında təşkilati məsələlərə baxılıb. Ç.Daşdəmirov səs çoxluğu ilə Veteranlar Şurasının sədri seçilib.

Ç.Daşdəmirov 15 avqust 1963-cü ildə İsmayıllı rayonunun Balik kəndində anadan olub. SSRİ Daxili İşlər Nazirliyinin Orconikidze adına Ali Hərbi Komandanlıq Məktəbində ali hərbi təhsil alıb. Həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunu bitirib.

SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında zəngin xidmət yolu keçib. Azərbaycan Daxili Qoşunlarının formalaşmasında iştirak etmiş zabitlərdən biri olub. Respub - likamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib. Ön cəbhədə düşmənlə döyüşdə ağır yaralansa da, yenidən sıraya qayıdıb, hərbi xidmət borcunu fədakarcasına yerinə yetirib.

Ç.Daşdəmirov Daxili Qoşunların ayrı-ayrı hərbi hissələrində və Baş İdarəsində məsul vəzifələrə təyin olunub. Daxili Qoşunların sıralarında polkovnik hərbi rütbəsinə və Daxili Qoşunların Baş İdarəsində İnspeksiya rəisinin müavini vəzifəsinədək yüksəlib. O, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində öz əməyini əsirgəməyib.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. Hərbi xidmət dövründə bir çox mükafatlara layiq görülüb. Azərbaycan Respublikası müharibə və Silahlı Qüvvələr veteranıdır.

Hazırda veteran kimi gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində fəal iştirak edir.

Mətbuat xidməti

İDMANÇI HƏRBİ QULLUQÇULARIMIZ MÜKAFATLANDIRILIBLAR

Daxili İşlər Nazirinin əmrinə əsasən, dekabrın 7-dən 9-dək daxili işlər orqan və hissələri arasında əlbəyaxa döyüş üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Yarışda Daxili Qoşunların yığma komandası 8 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Şəxsi birincilikdə 67987 saylı hərbi hissənin hərbi qulluqçuları - çavuş Nurlan Hacıyev 65 kq, leytenant Natiq Allayarov 70 kq, gizir Tural Süleymanov 80 kq, 16075 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Müşviq Hüseynov 90 kq çəki dərəcəsində 1-ci yeri tutublar.

16075 saylı hərbi hissənin digər hərbi qulluqçusu gizir Elçin Güləliyev 80 kq, 67987 saylı hərbi hissədən çavuş Rafiq Təhməzov +90 kq çəki dərəcəsində 2-ci, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu kiçik çavuş Əli Quliyev 75 kq, çavuş Əsail Musayev isə 85 kq çəki dərəcəsində 3-cü yerə layiq görülüblər.

Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yeri tutub.

Yarışda yüksək nəticələr göstərən idmançı hərbi qulluqçular hərbi hissə komandirləri tərəfindən mükafatlandırılıblar.

Allah rəhmət eləsin

Daxili Qoşunların şəxsi heyəti Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədova **atası Məmmədov İsgəndər Məhəmməd oğlunun** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000